**“Qiymətli metalların, onlardan hazırlanan məhsulların, habelə qiymətli metal qırıntılarının və tullantılarının analizinin və ekspertizasının keçirilməsi halları və Qaydaları” nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Qiymətli metallar və qiymətli daşlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanının 1.17-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Qiymətli metalların, onlardan hazırlanan məhsulların, habelə qiymətli metal qırıntılarının və tullantılarının analizi və ekspertizasının keçirilməsi halları və Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 10 may 2006-cı il
№ 121

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2006-cı il 10 may tarixli 121 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Qiymətli metalların, onlardan hazırlanan məhsulların, habelə qiymətli metal qırıntılarının və tullantılarının analizinin və ekspertizasının keçirilməsi

## HALLARI və QAYDALARI

1. Bu Qaydalar “Qiymətli metallar və qiymətli daşlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanının 1.17-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və qiymətli metalların, onlardan hazırlanan məhsulların, habelə qiymətli metal qırıntılarının və tullantılarının (bundan sonra - məmulat) analizinin və ekspertizasının keçirilməsi hallarını və qaydalarını müəyyən edir.

2. Məmulatların analizi və ekspertizası aşağıdakı hallarda aparılır:

hüquqi və fiziki şəxslərin (bundan sonra - şəxs) rəsmi müraciətləri olduqda;

qanuna müvafiq olaraq üzərində dövlət nəzarəti həyata keçirilən şəxslərdən nümunə üçün götürülmüş məmulatların yoxlanılması lazım olduqda;

məmulatın damğalanması zamanı.

3. Məmulatların analizi və ekspertizası Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti (bundan sonra - Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti) tərəfindən həyata keçirilir.[1]

4. Analizin və ekspertizanın keçirilməsinə dair şəxs tərəfindən təqdim olunmuş müraciətdə Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti qarşısında qoyulan suallar öz əksini tapmalı və bu tədqiqatların aparılması üçün təqdim edilən məmulatlar əlavə olunmalıdır.

5. Analiz və ekspertiza, bir qayda olaraq, 1 (bir) ay müddətində həyata keçirilməlidir.

Analizin və ekspertizanın aparılması 1 (bir) ay ərzində mümkün olmadıqda, Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti tərəfindən analizin və ekspertizanın aparılması üçün müraciət edən şəxs məlumatlandırılır və onunla razılaşdırılaraq, tədqiqatların aparılması üçün əlavə müddət təyin olunur.

6. Analizin və ekspertizanın aparılması üçün təqdim olunan məmulatın əyarlanma prosesində tərkibindəki qiymətli metalların miqdarını yüksək dəqiqliklə müəyyən etmək mümkün olmadıqda, spektral və kimyəvi analiz üsullarından istifadə olunur.

Spektral və kimyəvi analiz üsulları Azərbaycan Respublikasında qüvvədə olan dövlət standartlarına və texniki şərtlərə uyğun aparılır.

7. Ekspertizanı həll etmək üçün nəzərdə tutulan suallar ekspertin səlahiyyətlərinə aid olmadıqda və ya təqdim edilmiş məmulatlarla tədqiqatların həyata keçirilməsi qeyri-mümkün olduqda, bu barədə analizin və ekspertizanın aparılması üçün müraciət etmiş şəxsə məlumat verilir.

8. Aparılmış tədqiqatlar əsasında əldə edilmiş nəticələr nəzərə alınmaqla, ekspert (ekspertlər) öz adından yazılı rəy verir və onu imzalayır. Ekspertin (ekspertlərin) imzaları Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidmətinin möhürü ilə təsdiq olunur.

Rəy 2 (iki) nüsxədə tərtib edilir və onun 1 (bir) nüsxəsi Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidmətində saxlanılır, digər nüsxəsi isə təqdim olunmuş materiallar (onların qalıqları) da qaytarılmaq şərtilə müraciət edən şəxsə verilir.

Ekspert rəyində aparılmış tədqiqatların müfəssəl təsviri, onlara əsasən çıxarılmış nəticələr və şəxs tərəfindən qoyulmuş suallara əsaslandırılmış cavablar verilməlidir.

Əgər ekspert tədqiqat apararkən iş üçün əhəmiyyəti olan, haqqında sual qoyulmayan halları müəyyən edirsə, onun bu hallar barədə mülahizələrini öz rəyinə daxil etməyə hüququ vardır.

9. Şəxs aparılmış tədqiqatın nəticələri ilə razılaşmadıqda, o, qanunvericiliklə nəzərdə tutulmuş qaydada məhkəməyə müraciət edə bilər.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


**1.** 16 aprel 2009-cu il tarixli 64 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 04, maddə 282)**


## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 16 aprel 2009-cu il tarixli 64 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 04, maddə 282)** ilə «Qiymətli metalların, onlardan hazırlanan məhsulların, habelə qiymətli metal qırıntılarının və tullantılarının analizinin və ekspertizasının keçirilməsi halları və Qaydaları»nın 3-cü bəndində «**Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Əyar Palatası (bundan sonra - Əyar Palatası)**» sözləri «**Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti (bundan sonra - Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti)**» sözləri ilə, 4-cü bəndində, 5-ci bəndinin ikinci abzasında, 8-ci bəndinin birinci və ikinci abzaslarında ismin müvafiq hallarında «**Əyar Palatası**» sözləri ismin müvafiq hallarında «**Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti**» sözləri ilə əvəz edilmişdir.